Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 24.12.2012-ci il tarixli 1217050000004800 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Əlavə - 1

***“Elektron bəyannamənin qəbulu” elektron xidməti üzrə inzibati reqlament***

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** *Elektron bəyannamənin qəbulu*

**1.2. Elektron xidmətin məzmunu:** *Bu xidmət vergi ödəyicilərinin Bəyannamə Tərtibatı Proqramından (BTP) istifadə etməklə bəyannamələrin, elektron formada tərtib edilərək vergi orqanına təqdim edilməsini əhatə edir.*

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:** *Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16-cı və 72-ci maddələri, Azərbaycan Respublikası Prezidentinin “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” 23 may 2011-ci il tarixli, 429 nömrəli Fərmanının 2-ci və 2-1-ci hissələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Vergi hesabatının elektron sənəd formasında göndərilməsi Qaydası"nın təsdiq edilməsi barədə” 27 iyul 2007-ci il tarixli, 120 nömrəli Qərarı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş, 1 nömrəli əlavə - “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları", həmin Qaydalara 1 nömrəli əlavə, eləcə də "Elektron xidmət növlərinin Siyahısı"nın 7.1-ci bəndi.*

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** *Azərbaycan Respublikasının Vergilər Nazirliyi.*

**1.5. Elektron xidmətin digər icraçıları:** *Yoxdur.*

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** *Tam avtomatlaşdırılmışdır.*

**1.7. Elektron xidmətin icra müddəti:** *Elektron xidmətin icra müddəti sorğunun informasiya sistemi tərəfindən emalı müddətindən asılıdır.*

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** *Vergi bəyannamələri formada tərtib edilərək İnternet Vergi İdarəsi vasitəsilə elektron formada təqdim edilir və bu barədə vergi ödəyicisinə bildiriş verilir.*

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** *İnteraktiv.*

**2.2. Elektron xidmət üzrə ödəniş:** *Ödənişsiz.*

**2.3. Elektron xidmətin istifadəçiləri:** *Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirilmə nömrəsi (VÖEN) almış şəxslər.*

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** *https://www.e-taxes.gov.az/ http://www.e-gov.az*

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

- https://www.e-taxes.gov.az/dispatcher?menu=ebyn&submenu=1&nav=ebyn
- http://www.e-gov.az
- http://www.taxes.gov.az/?name=beyanname&bolme=formalar&lang=
- *Vergi ödəyicilərinə xidmət strukturları (müvafiq idarə və şöbələr)*
- *Vergi ödəyicilərinə xidmət mərkəzləri*
- *Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195)*

**2.6 Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** *Bəyannamə Tərtibatı Proqramından (BTP) istifadə etməklə tərtib olunmuş bəyannamə.*

*Qeyd: Bəyannamə formaları* http://www.taxes.gov.az/?name=beyanname&cat=4&lang= *elektron ünvanında yerləşdirilmişdir.*

### 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.2. İnteraktiv elektron xidmətlər üçün sorğu:** *İnteraktiv xidmətin istifadəçilərinin Bəyannamə Tərtibatı Proqramı, Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən verilmiş şifrə, parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə istifadəçi bəyannaməni elektron formada tərtib edir və sistemə daxil olduqda həmin bəyannaməni vergi orqanına təqdim etmək imkanı yaranır.*

**3.2.1. Sorğunun formalaşdırılması:** *İstifadəçi Bəyannamə Tərtibatı Proqramını (BTP) aşağıdakı elektron ünvandan kompyuterinə yükləyir:*

- https://www.e-taxes.gov.az/dispatcher?menu=ebyn&submenu=1&nav=ebyn.
- *Yüklənmiş BTP proqramı işə salınaraq "Fayl" sətrindən "Yeni" düyməsi sıxılır. Açılmış pəncərədən tərtib olunacaq bəyannamə, hesabat və ya arayış seçilir və "Qəbul" düyməsi sıxılır. Ekranda açılmış bəyannamə, hesabat və ya arayış formasına müvafiq məlumatlar daxil edilərək yenidən "Fayl" sətrindən "Qeyd et" düyməsi vasitəsi ilə açılmış bəyannamə, hesabat və ya arayış yaddaşa salınır.*
- *Daha sonra BTP proqramının "Paketlə" sətrindən "Paketlə" düyməsi sıxılır.*
- *Açılmış pəncərədən müvafiq bəyannamə, hesabat və ya arayışlar (bir vəya bir neçəsi) seçilərək "Bəyannaməni paketə əlavə et" düyməsi sıxılır.*
- *Paket faylının adı daxil edildikdən sonra "Paketlə" düyməsi sıxılaraq paket faylı yaradılır.*
- *Daha sonra İnternet Vergi idarəsi portalının E-bəyannamə, ƏDV-DH və ŞHV bölümü üzərindən açılan pəncərədən:*
- *"e-Bəyannamə"siyahısından "Paket göndər" seçilir.*
- *Açılan pəncərədən "Obzor"düyməsi vasitəsi ilə göndəriləcək paket seçilir və "Göndər" düyməsi sıxılır.*
- *Yüklənmiş bəyannamə, hesabat və ya arayışların sistem tərəfindən avtomatik yoxlanılması üçün – "Yoxla" düyməsinə basılır.*
- *Bəyannamə, hesabat və ya arayışlarda səhv tapıldıqda bu barədə müvafiq mesaj çıxır. Yanıb-sönən mesaj düyməsi sıxılmaqla səhvin təfərrüatları ekrana çıxarılır. Aşkar edilmiş səhv aradan qaldırıldıqdan sonra proses yenidən həyata keçirilir.*
- *Bəyannamədə səhv tapılmadıqda "təsdiq et" düyməsi sıxılır*
- *Təsdiqdən sonra Sadələşdirilmiş vergi bəyannaməsinin vergi orqanına göndərilməsi barədə ekrana Bildiriş çıxır.*

*Çap düyməsi ilə Bildiriş çap edilir.*

**3.2.2. Sorğunun qəbulu:** *Bəyannamə sistemə daxil edilərək istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və ona 16 rəqəmli qeydiyyat nömrəsi əks olunmuş bildiriş verilir.*

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.3.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:** *Elektron bəyannamənin qəbulundan aşağıdakı hallarda imtina edilir və sistem tərəfindən bu barədə istifadəçinin ekranına müvafiq mesajlar verilir:*

*- İstifadəçi kodu, parol və ya şifrəsi səhv olarsa;*
*- Vaxtı keçmiş olarsa;*
*- Fərdi sahibkar vəfat etmiş olarsa;*
*- VÖEN səhv olarsa;*
*- İdarə kodu (ƏVİ kodu) səhv olarsa;*
*- Səyyar vergi yoxlaması aparılan dövr üzrə;*
*- Mükəlləfiyyəti uyğun deyilsə;*
*- Bəyannamənin dövrü səhv göstərilərsə.*

**3.3.2. Sorğunun qəbulu:** *İmtina üçün əsas olmadıqda bəyannamə qəbul edilir.*

**3.4. Sorğunun icrası:**

**3.4.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:** *Vergi bəyannaməsi Bəyannamə Tərtibatı Proqramı (BTP) vasitəsilə elektron formada tərtib edilərək təqdim edilir.*

*Elektron xidmətin göstərilməsinə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Iqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı baş idarəsi və İnformasiya texnologiyaları və Proqram təminatı şöbəsi məsuliyyət daşıyır.*

**3.4.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti:** *Daxil edilən məlumatların informasiya sistemində emalı müddətindən asılı olaraq elektron xidmət yerinə yetirilir.*

**3.4.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** *Yoxdur.*

**3.4.4. hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:** *Vergi bəyannaməsi Bəyannamə Tərtibatı Proqramı (BTP) vasitəsilə elektron formada tərtib edilərək təqdim edildikdə avtomatik olaraq vergi ödəyicisinə bildiri° təqdim edilir və bəyannamə təqdim edilmi° hesab edilir.*

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.5.1. Nəzarət forması:** *Elektron xidmətin göstərilməsi zamanı aparılan proseslərə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə Onlayn qaydada nəzarət edilir.*

**3.5.2. Nəzarət qaydası:** *Bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195)fəaliyyət göstərir.*

**3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** *İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət edə bilər.*

**3.6.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** *Elektron xidmətin göstərilməsindən və ya elektron xidmətin göstərilməsindən imtinadan qanunvericiliyə uyğun olaraq inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.*

**3.6.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** *İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.*

**3.6.3. Şikayətin baxılma müddəti:** *Şikayət inzibati orqana verildikdə, şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunun 78-ci maddəsinə əsasən, 1 ay müddətinə baxılır.*

*Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.*

*** * ***